**“Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə həvalə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 iyun 2014-cü il
№550

Azərbaycan Respublikası Prezidentinin
2014-cü il 13 iyun tarixli Sərəncamı ilə
təsdiq edilmişdir

## Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün DÖVLƏT PROQRAMI

### 1. Giriş

Ana və uşaqların sağlamlığının qorunması məsələsi dövlətin daim diqqət mərkəzindədir.

Son illər ölkəmizdə bu sahədə nailiyyətlər əldə edilmişdir. Bakı şəhərində Respublika Perinatal Mərkəzi, Naxçıvanda, Gəncədə, Lənkəranda, Qubada, Sabirabadda və Şəkidə regional perinatal mərkəzlər yaradılmış, müasir avadanlıqlarla təchiz edilmişdir. Bu da respublikanın şəhər və rayonlarında keyfiyyətli perinatal xidmətlərdən istifadənin əhali arasında daha bərabər şəkildə bölünməsinin təmin olunmasına imkan yaratmışdır.

Həyata keçirilmiş tədbirlər nəticəsində respublikada ana və körpə ölümü göstəriciləri azalmışdır. Belə ki, ana ölümü əmsalı hər 100 min diridoğulana 2006-cı ildə 34,2 olmuşdursa, 2013-cü ildə bu rəqəm 14,5 təşkil etmişdir. Körpə ölümü göstəricisi isə hər 1000 diridoğulana müvafiq illərə görə 11,9-dan 10,8-ə enmişdir.

Bununla belə, ölkəmizdə ana və uşaqların sağlamlığının qorunması sahəsində həll olunmalı problemlər hələ də qalmaqdadır. Ümumdünya Səhiyyə Təşkilatının və digər beynəlxalq təşkilatların ekspertlərinin rəylərinə əsasən bu sahədə görülmüş məqsədyönlü tədbirlərə və xidmətin göstəricilərinin yaxşılaşmasına baxmayaraq, respublikada diri və ölü doğulma hallarının mövcud meyarlarının beynəlxalq meyarlara uyğun olmamasına görə rəsmi statistik göstəricilər vəziyyətin real və obyektiv qiymətləndirilməsinə imkan vermir.

Perinatal yardımın keyfiyyətinin yaxşılaşdırılması və bu xidmətdə çalışan tibb işçilərinin peşə biliklərinin artırılması istiqamətində aparılan tədbirlərin davamlılığının təmin edilməsi, beynəlxalq diridoğulma meyarlarına keçilməsi vasitəsilə Azərbaycan Respublikasında perinatal və uşaq statistik göstəricilərinin Ümumdünya Səhiyyə Təşkilatının qəbul etdiyi standartlara uyğunlaşdırılması, antenatal dövrdə hamilə qadınların sağlamlığına təhlükə yarada bilən patoloji vəziyyətlərin vaxtında aşkarlanması işinin təkmilləşdirilməsi, doğuşayardım xidməti müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, təchizatının yaxşılaşdırılması və digər məsələlərin həyata keçirilməsi vacib olan tədbirlərdir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası"nda "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın qəbulu və həyata keçirilməsi nəzərdə tutulmuşdur.

## 2. Dövlət Proqramının məqsədi və əsas vəzifələri

2.1. Dövlət Proqramının məqsədi Azərbaycan Respublikasında qadınlara və uşaqlara göstərilən müalicə-profilaktika yardımının keyfiyyətini yüksəltmək, onların sağlamlıq vəziyyətini daha da yaxşılaşdırmaqdan ibarətdir.

2.2. Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardan ibarətdir:

2.2.1. ana və uşaqların sağlamlığının qorunması sahəsində tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və kadr hazırlığının gücləndirilməsi;

2.2.2. regionallaşdırma prinsipi əsasında perinatal yardım islahatlarının davam etdirilməsi;

2.2.3. doğuşayardım tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi;

2.2.4. uşaqlara, o cümlədən yenidoğulmuşlara, körpələrə göstərilən tibbi xidmətin keyfiyyət və səmərəliliyinin yaxşılaşdırılması;

2.2.5. respublikada diridoğulmanın beynəlxalq meyarlarının tətbiq edilməsi;

2.2.6. əhali, xüsusilə hamiləliyəqədərki dövrdə olan qadınlar və gənc ailələr arasında reproduktiv sağlamlıq və ailə planlaşdırılması haqqında səhiyyə maarifi işinin daha geniş surətdə aparılması və qadınların sağlamlığının mühafizəsi sahəsində tibbi xidmətin keyfiyyət və səmərəliliyinin yüksəldilməsi.

## 3. Dövlət Proqramının maliyyələşdirilməsi

Dövlət Proqramında nəzərdə tutulan tədbirlər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı orqanlar üçün nəzərdə tutulmuş vəsait dairəsində maliyyələşdirilir.

## 4. Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlər planı

| Sıra №-si | Tədbirin adı | İcraçı orqanlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **4.1. Perinatal yardımın səviyyələri üzrə tibbi xidmətin yaxşılaşdırılması** | | | |
| 4.1.1. | Respublikanın şəhər və rayonlarında doğuşayardım xidməti göstərən aşağıdakı tibb müəssisələrinin təmiri və tibbi avadanlıqlarla təchiz edilməsi: Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu; Mingəçevir Şəhər Rayonlararası Doğum Evi; Salyan Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi; Masallı Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi; Goranboy Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi; Zərdab Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi; Qəbələ Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi | Səhiyyə Nazirliyi | 2014-2018 |
| 4.1.2. | Yenidoğulmuşlara, xüsusən azçəkili körpələrə reanimasiya yardımının göstərilməsi üçün doğuşayardım müəssisələrinin zəruri tibbi avadanlıqlarla, dərman və tibbi ləvazimatlarla təchiz olunması işinin təkmilləşdirilməsi | Səhiyyə Nazirliyi | 2014-2020 |
| 4.1.3. | Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda, akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında, respublika və regional perinatal mərkəzlərində | Səhiyyə Nazirliyi | 2014-2015 |

| | | | |
|---|---|---|---|
| | səyyar konsultativ xidmətin təşkili və onların xüsusiləşdirilmiş nəqliyyat vasitələri ilə təmin edilməsi | | |
| **4.2. Antenatal yardım xidmətlərinin təkmilləşdirilməsi** | | | |
| 4.2.1. | Antenatal yardım göstərən tibb müəssisələri şəbəkəsinin işinin təkmilləşdirilməsi | Səhiyyə Nazirliyi | 2014 |
| 4.2.2. | Antenatal yardım göstərən tibb müəssisələrinin tibbi avadanlıq və cihazlarla təchizatının yaxşılaşdırılması | Səhiyyə Nazirliyi | 2014-2015 |
| **4.3. Sağlamlıq imkanları məhdud uşaqların erkən aşkarlanması və onlara yardımın göstərilməsinin təşkil edilməsi** | | | |
| 4.3.1. | Sağlamlıq imkanları məhdud uşaqların erkən aşkarlanması və onlara yardımın göstərilməsi üzrə klinik protokolların və metodik sənədlərin hazırlanması | Səhiyyə Nazirliyi | 2014-2018 |
| 4.3.2. | Perinatal diaqnostika üzrə klinik protokolların hazırlanması və antenatal yardım xidməti göstərən tibb müəssisələrinin işçiləri üçün müvafiq təlimlərin keçirilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |
| 4.3.3. | Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda anadangəlmə patologiyaların profilaktikası məqsədi ilə preimplantasion və tibbi-genetik müayinələrin təşkil edilməsi | Səhiyyə Nazirliyi | 2014-2015 |
| 4.3.4. | Yenidoğulmuşlar arasında inkişaf qüsurlarının erkən aşkarlanması məqsədi ilə neonatal müayinənin (skrininqlərin) aparılması | Səhiyyə Nazirliyi | mütəmadi |
| **4.4. Ana və uşaqların sağlamlığının qorunması sahəsində kadr hazırlığının təkmilləşdirilməsi** | | | |
| 4.4.1. | Ana və uşaqların sağlamlığının qorunması sahəsində çalışan həkim və orta tibb işçilərinin davamlı tibbi təhsilinin (təlimlərin və klinik təcrübələrin) həyata keçirilməsi | Səhiyyə Nazirliyi | 2014-2020 |
| 4.4.2. | Ana və uşaqların sağlamlığının qorunması sahəsində xidmət göstərən tibb işçilərinin xarici ölkələrdə müasir | Səhiyyə Nazirliyi | 2014-2020 |

| | | | |
|---|---|---|---|
| | texnologiyalarla işləmək vərdişlərinin təkmilləşdirilməsi | | |
| 4.4.3. | Uşaqların qidalandırılmasına aid yeni təlimatın hazırlanması və tibb işçiləri üçün müvafiq təlimlərin keçirilməsi | Səhiyyə Nazirliyi | 2014-2015 |
| **4.5. Diridoğulmanın beynəlxalq meyarlarının ölkə üzrə tətbiq edilməsi** | | | |
| 4.5.1. | Diridoğulmanın beynəlxalq meyarlarına keçidlə əlaqədar tənzimləyici normativ hüquqi aktların hazırlanması | Səhiyyə Nazirliyi, Dövlət Statistika Komitəsi | 2014-2015 |
| 4.5.2. | Səhiyyə sahəsində rəsmi statistika hesabatlarının və tibbi qeydiyyat formalarının diridoğulmanın beynəlxalq meyarlarına uyğunlaşdırılması | Səhiyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2014-2015 |
| 4.5.3. | Diridoğulmanın beynəlxalq meyarlarına keçidlə əlaqədar klinik protokolların və müvafiq təlimatların hazırlanması | Səhiyyə Nazirliyi | 2014-2015 |
| 4.5.4. | Tibbi təhsil sahəsində tədris proqramlarının diridoğulmanın beynəlxalq meyarlarına uyğun olaraq təkmilləşdirilməsi | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi | 2014-2015 |
| 4.5.5. | Diridoğulmanın beynəlxalq meyarlarına keçidlə əlaqədar ictimai maarifləndirmə işinin həyata keçirilməsi | Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2014-2016 |
| **4.6. Ana və uşaqların sağlamlığının qorunması sahəsində monitorinq sisteminin yaradılması** | | | |
| 4.6.1. | Hamilə qadınların vahid elektron registrinin yaradılması | Səhiyyə Nazirliyi | 2014-2015 |
| 4.6.2. | Reproduktiv sağlamlıq xidmətinin vahid elektron sisteminin yaradılması | Səhiyyə Nazirliyi | 2014-2015 |
| 4.6.3. | Doğuşayardım tibb müəssisələrində göstərilən tibbi xidmətlərin keyfiyyətinin davamlı monitorinq və qiymətləndirmə sisteminin yaradılması və həyata keçirilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |
| 4.6.4. | Uşaqlar arasında xəstələnmə hallarının azaldılması, xəstəliklərin erkən aşkar edilməsi, onların sağlamlığının | Səhiyyə Nazirliyi | mütəmadi |

| | | | |
|---|---|---|---|
| | yaxşılaşdırılması məqsədi ilə dispanserizasiyanın həyata keçirilməsinə dövlət nəzarətinin təmin edilməsi | | |
| 4.6.5. | Dövlət Proqramının icrasına dair monitorinqlərin keçirilməsi və icmal hesabatlarının hazırlanması | Səhiyyə Nazirliyi | mütəmadi |
| **4.7. Ana və uşaq sağlamlığının qorunması sahəsində ictimai maarifləndirmənin həyata keçirilməsi** | | | |
| 4.7.1. | Reproduktiv sağlamlıq, o cümlədən abortların qadınların reproduktiv sağlamlığına mənfi təsiri barədə maarifləndirmə işinin həyata keçirilməsi | Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 4.7.2. | Uşaqların ana südü ilə qidalandırılması barədə ictimai maarifləndirmə işinin həyata keçirilməsi | Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2014-2020 |

## 5. Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələr

5.1. Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələr aşağıdakılardır:

5.1.1. ana və uşaqların sağlamlığının qorunması sahəsində tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi;

5.1.2. diridoğulmanın beynəlxalq meyarlarının tətbiq edilməsi;

5.1.3. kadr hazırlığının gücləndirilməsi.